DÖVLƏT VERGİ XİDMƏTİ

# Operativ vergi nəzarəti tədbirləri üzrə edilmiş dəyişikliklər

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən**

Aşağıdakı məsələlər də operativ vergi nəzarəti ilə əhatə edilir:

❖ Vergi ödəyicisinin sahibliyində olan mallara dair elektron qaimə-faktura, əvvəlcədən sifariş edilmədən təqdim edilən mallar üzrə malların təhvil-qəbul aktı, idxal gömrük bəyannaməsi və bu bəyannamə ilə bağlı hesab-faktura (invoys), elektron alış aktları, elektron qaimə-faktura təqdim edilənədək komissiyaya, emala və saxlamaya (məsuliyyətli mühafizəyə) götürülmüş mallara görə təhvil-qəbul aktı və qaytarılmış mallara dair malların qaytarılması aktı əsasında malların alınmasına, elektron qaimə-faktura əsasında təqdim edilməsinə,

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

topdansatış ticarət və istehsal obyektlərindən, habelə anbarlardan malların pərakəndə satış qaydasında rəsmiləşdirməklə təqdim edilməsinə, habelə malların vergi ödəyicisinin bir təsərrüfat subyektindən (obyektindən) digər təsərrüfat subyektinə (obyektinə) göndərilməsi zamanı aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə elektron qaimə-fakturanın tərtib edilməsinə nəzarət edilməsi;

❖ Neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən vergi ödəyiciləri istisna olmaqla, digər vergi ödəyicisinin idxal olunmuş mallarının saxlanıldığı (boşaldıldığı) yerə baxış keçirilməsi.

**Nəzərə alın ki...**

Eyni şəxs vergi orqanları tərəfindən eyni vergi ödəyicisi üzrə vergi ili ərzində bir dəfədən artıq müşahidəçi kimi dəvət oluna bilməz.

**Qanunvericiliyin tələblərinə əməl etməyəcəyiniz halda baş verə biləcək maliyyə itkiləriniz, vergi və sığorta məbləğlərinin hesablanıb ödənilməsi ilə bağlı məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz**

**BAKI — 2022**